

# Məmməd İSMAYIL

Azərbaycanın ədəbi ictimaiyyətinə ağır itki üz verib. Görkəmli şair, dəyərli ədəbiyyatşünas, müəllim Məmməd İsmayıl vəfat edib.

Məmməd İsmayıl (Məmməd Mürşüd oğlu İsmayılov) 1939-cu il noyabrın 1-də Tovuz rayonunun Əsrik-Cırdaxan kəndində dünyaya gəlib. 1957-ci ildə Əsrik-Cırdaxan kənd orta məktəbini, 1964-cü ildə Bakı Dövlət Universitetini, 1975-ci ildə SSRİ Yazıçılar İttifaqı nəzdindəki ikiillik Ali Ədəbiyyat Kurslarını bitirib. 1998-ci ildə filologiya elmləri namizədi elmi dərəcəsi, 2013-cü ildə Türkiyənin Çanaqqala On Səkkiz Mart Universitetində professor ünvanı alıb. 1966-1973-cü illərdə Azərbaycan Dövlət Radio və Televiziya Komitəsində redaktor, böyük redaktor, şöbə müdiri, 1975-1976-cı illərdə "Ədəbiyyat və incəsənət" qəzetində müxbir, 1976-1980-ci illərdə C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasının Elmi-kütləvi Sənədli Filmlər Birliyində baş redaktor, 1980-1983-cü illərdə "Yazıçı" nəşriyyatında şöbə müdiri və baş redaktorun müavini, 1983-1987-ci illərdə "İşıq" nəşriyyatının direktoru, 1983-1992-ci illərdə Respublika Komsomolu Mərkəzi Komitəsi nəzdində gənc yazıçıların Respublika "Gənclik Ədəbi Birliyi"nin rəhbəri, 1988-1992-ci illərdə "Gənclik-Molodost" jurnallarının baş redaktoru vəzifələrində işləyib. 1992-1993-cü illərdə Azərbaycan Televiziya və Radio Verilişləri Şirkətinin idarə heyətinin sədri olub. 1996-cı ilin may ayından Türkiyənin Çanaqqala On Səkkiz Mart Universitetində professor kimi elmi-pedaqoji fəaliyyət göstərib.

Bədii yaradıcılığa erkən başlayıb. 1956-cı ildə ilk mətbu şeiri - "Dağlar" rayon qəzetində dərc edilib. 1966-cı ildə "Ana əlləri" adlı ilk şeir kitabı çapdan çıxıb. "Dünyaya baxıram", "Axşamlar, səhərlər", "Söz vaxtına çəkər", "Qoymayın dünyanı adiləşməyə", "Baxtıma düşən gün", "Hələ yaşamağa dəyər", "Dünya bizim evimizdir", "Aman təklik əlindən", "Yaş altmışa dayandı", "Bu qan yerdə qalan deyil", "Yoxun varlığı", "Sazın söz karvanı" və s. kitabları böyük maraqla qarşılanıb. 300-dən artıq elmi-publisistik məqaləsi işıq üzü görüb, 50-dən çox şeirinə mahnı bəstələnib. Əsərləri 50-dən çox dilə tərcümə edilib. Özü də müxtəlif ölkələrin şair və yazıçılarının bir çox əsərini Azərbaycan və türk dilinə çevirərək çap etdirib. Dünyanın 30-dan çox ölkəsində keçirilən konfrans və şeir festivalında (Türkiyə, Almaniya, İtaliya, Hindistan, Vyetnam, Kuba, Rusiya, Ukrayna, Belarus, Polşa, Litva, Türkmənistan, Suriya, Rumıniya, Serbiya, Bosniya, Qaradağ, Şimali Makedoniya, Litva, Burkino-Faso və s.) türk və Azərbaycan ədəbiyyatlarını layiqincə təmsil edib. 1969-cu ildə hazırladığı "Odlar diyarı" silsilə verilişlərinə görə Azərbaycan Jurnalistlər İttifaqı tərəfindən "Qızıl qələm", 1978-ci ildə Bakıda çap olunmuş "Söz vaxtına çəkər" və Moskvada çap olunmuş "Dəymiş nar dənələri" kitablarına görə Azərbaycan Komsomolu mükafatına və Moskvada nəşr edilmiş "Yerlə göy arasında" kitabına görə Ümumittifaq N.Ostrovski mükafatına, 1979-cu ildə "Ceyran Muğana qayıdır" sənədli filminin ssenarisinə görə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin gümüş medalına layiq görülüb. 1996-cı ildə Türkiyə Dəyanət Vəqfinin keçirdiyi şeir yarışmasının qalibi olub. 1997-ci ildə Türkiyə Yazıçılar və Sənətkarlar Vəqfinin "Türk Dünyasına Xidmət" mükafatını alıb. Fransa Elm, Sənət və Ədəbiyyat Akademiyasının və Ukrayna Ali Təhsil Akademiyasının həqiqi üzvü idi. Ukrayna Ali Təhsil Akademiyası türk və slavyan xalqları ədəbiyyatlarına verdiyi töhfələrə görə ona fəxri doktor adı verib. Türkiyənin Konya şəhərində keçirilən "Saz və Söz bayramı"nda iştirak edərək 1990, 1991, 1995-ci illərdə bayramın 1-ci mükafatına - böyük qızıl medala, 2012-ci ildə Krımın Koktebel şəhərində keçirilən 10-cu Şeir Simpoziumunun I diplomuna, 2014-cü ildə Rusiya Yazıçılar İttifaqının S.Yesenin adına "Qızıl payız" medalına və diplomuna, Mərkəzi ofisi Brüsseldə yerləşən Beynəlxalq Yazıçılar Assosiasiyasının "Peter Boqdani" (2017), Rumıniya M.Eminesku Akademiyasının "Mixay Eminesku" və Ukrayna Ali Təhsil Akademiyasının "Taras Şevçenko" medallarına, Moldovanın "Literatura Arta" ədəbiyyat qəzetinin mükafatına (2018), Kosovada alban dilində çap olunan "Unudulmaq növbəsi" kitabına görə Azəm Şkrelit beynəlxalq ədəbiyyat mükafatına (2018), Rusiya Yazıçılar İttifaqının "İnnokenti Annenski" mükafatına (2018), Qazaxıstan Respublikası prezidentinin təsis etdiyi Qazaxıstan Xalq Məclisinin 25-ci il yubiley medalına və s. layiq görülüb.

Görkəmli şair, dəyərli alim, müəllim, səmimi insan Məmməd İsmayılın işıqlı xatirəsi qəlbimizdə yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**